## İCTİMAİ ELMLƏR BÖLMƏSİ

UOT 330.34; 330.35

# AZƏRBAYCAN İQTİSADİYYATI POSTKONFLİKT DÖVRÜNDƏ: MÖVCUD VƏZİYYƏT VƏ STRATEJİ PRİORİTETLƏR

**Veysəl Seyfəl oğlu Əyyubov**
*iqtisad elmləri doktoru, professor*
*Mingəçevir Dövlət Universiteti*

**Arif Məmmədhəsən oğlu Tağıyev**
*Mingəçevir Dövlət Universiteti*

**Xülasə**
*Məqalə Azərbaycan xalqının, milli dövlətçiliyin və iqtisadiyyatın qarşısında duran həyati əhəmiyyətli məsələlərə – postpandemiya və postkonflikt dövründə ölkə iqtisadiyyatının davamlı və dayanıqlı inkişafının təmin olunmasına, həmçinin işğaldan azad edilmiş Qarabağın və digər rayonların ölkə iqtisadiyyatına reinteqrasiyası kimi qlobal məsələlərə həsr olunmuşdur. Bununla bağlı məqalədə milli iqtisadiyyatın müasir dövrdə sosial-iqtisadi uğurlarının təhlili, mövcud problemlərinin qısa şərhi və onların həlli istiqamətində dövlətin müəyyən etdiyi strateji hədəflərə müəlliflərin konseptual baxışları öz əksini tapmışdır.*
***Açar sözlər:*** *milli iqtisadiyyat, postkonflikt dövrü, postpandemiya dövrü, dayanıqlı inkişaf, davamlı inkişaf, reinteqrasiya, milli prioritetlər*

## Giriş

Müasir qloballaşan dünya iqtisadiyyatına sürətlə inteqrasiya edən müstəqil Azərbaycan dövləti artıq dünya miqyasında rəqabətqabiliyyətli, əhəmiyyətli beynəlxalq yanacaq-enerji, nəqliyyat-logistika layihələrinin iştirakçısı olan bir ölkə kimi tanınır. Bu, bir tərəfdən ölkənin nüfuzunun yüksəlməsinə işarə olduğu halda, digər tərəfdən başqa ölkələrin, xüsusilə inkişaf etmiş ölkələrin, o cümlədən iri yanacaq-enerji istehsalçıları və istehlakçıları olan ölkələrin dünya bazarlarında ona bir rəqib kimi baxmağa sövq edir. Odur ki, milli iqtisadiyyatın yüksək sürətli inkişaf tempinin qorunub saxlanılması və rəqabətə davamlığının daim yüksəldilməsi üçün milli iqtisadiyyatın davamlı və iqtisadi-sosial-ekoloji problemlərə dayanıqlı bir iqtisadi konsepsiyanın yaradılmasına və ya davamlı, şaxələndirilmiş inkişaf modelinə keçidi aktuallaşır.

## Milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişaf konsepsiyası və onun reallaşdırılmasının sosial-iqtisadi qiymətləndirilməsi

Mahiyyət etibarı ilə davamlı inkişaf konsepsiyası iqtisadi, sosial və ekoloji problemlər fonunda mövcud problemlərə keyfiyyətcə yeni yanaşmadır. Odur ki, davamlı və dayanıqlı inkişaf problemi hazırda dünya ictimaiyyətinin diqqət mərkəzində olan əsas dünyavi problemlərdən biri olaraq qalmaqdadır. Təsadüfü deyildir ki, Birləşmiş Millətlər Təşkilatının qəbul etdiyi Dayanıqlı İnkişaf Gündəliyi hazırda dünyanın əksər ölkələri tərəfindən dəstəklənir. Belə ki, 25 sentyabr 2015-ci ildə Azərbaycan da daxil olmaqla BMT-nin 193 üzv dövləti "2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi"ni qəbul etmişdilər. Bu inkişaf proqramı 3 təməl prinsipinə əsaslanır: iqtisadi artım; sosial inkişaf və ətraf mühitin qorunması (ekoloji təhlükəsizliyin təmin olunması). Bu proqram çərçivəsində Azərbaycan 17 məqsədi, 107 hədəfi və 150 göstəricini özü üçün seçib və onların icrası üzrə müvafiq işlər görülür.

Davamlı və dayanıqlı inkişafın təmin olunmasının əsas şərtlərindən biri makroiqtisadi sabitliyin və iqtisadi artımın təmin olunmasıdır. İqtisadi artım milli iqtisadiyyatın əsas makroiqtisadi

göstəricilərindən biri kimi, daha çox, iqtisadi inkişafın keyfiyyət xarakteristikasını özündə əks etdirir. Yəni iqtisadi artım makroiqtisadi göstərici kimi həm kəmiyyət, həm də keyfiyyət dəyişikliklərinin göstəricisidir. İqtisadi artım müasir dövrdə ölkənin iqtisadi potensialının, iqtisadi gücünün artması və inkişafı ilə bərabər ölkə əhalisinin həyat səviyyəsinin, maddi rifah halının yüksəldilməsini, onun tələbatının ödənilməsini, xüsusilə daxili imkanlar hesabına ödənilməsini təmin etməlidir.

Hazırda qloballaşan dünya təsərrüfatı sistemində layiqli yer tutan Azərbaycan özünün milli iqtisadiyyatının mövcud rəqabət mübarizəsinə dayanıqlığını artırmaq üçün, birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir. Son illərdə Azərbaycanda milli iqtisadiyyatın davamlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks iqtisadi, təşkilati, siyasi ilkin şərtləri formalaşdırmaqla bağlı görülən işlər nəticəsində ölkəmizdə kifayət qədər iqtisadi, sosial, elmi-texniki, maliyyə, insan kapitalı potensialı, müvafiq hüquqi baza və start kapitalı yaradılmışdır.

Son illərdə ölkəmizdə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi siyasət nəticəsində milli iqtisadiyyatının inkişafında və daha da şaxələnməsində əsaslı makroiqtisadi nəticələr əldə olunmuşdur. Ölkə iqtisadiyyatı, xüsusilə qeyri-neft sektorunda yüksək artım tempi əldə olunmuş, Azərbaycan beynəlxalq standartlara uyğun orta gəlirli ölkələr qrupunda öz yerini daha da yüksəltmişdir. Əhalinin həyat səviyyəsinin yüksəlməsi istiqamətində mühüm naliyyətlər əldə olunmuşdur. Bir çox mühüm göstəricilər üzrə ölkəmizin beynəlxalq reytinqləri daha da artmış, onun maliyyə dayanıqlığı xeyli yüksəlmiş və strateji valyuta ehtiyatlarının həcmi daha da artaraq 50 milyard dolları ötmüş, qeyri-neft sektorunun xüsusi çəkisi ümumi daxili məhsulun həcmində daha da yüksəlmişdir. Son illərdə makroiqtisadi göstəricilər üzrə güclü artıma nail olunmuş, dünya iqtisadiyyatında baş verən maliyyə və iqtisadi böhranlara baxmayaraq ölkə iqtisadiyyatında dinamik inkişafı təmin olunub saxlanılmış və o, surətli inkişaf yolu keçərək regionun ən inkişaf etmiş ölkəsi statusunu qazanmışdır. Neft sektorunun güclü maliyyə dəstəyi nəticəsində ölkənin qeyri-neft sektorunun, yüksək texnologiyalı sənaye, emal və infrastruktur sahələrinin inkişafının təməli qoyulmuş, həyata keçirilən uğurlu struktur siyasəti nəticəsində iqtisadiyyatın şaxələnməsi təmin edilmiş, mühüm makroiqtisadi inkişaf əldə olunmuş, ÜDM-in tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi 60 faizi ötmüş, bir neçə iri miqyaslı beynəlxalq kommunikasiya layihələri icra olunmuş, əhalinin sosial rifah halının yüksəldilməsi istiqamətində yüksək nailiyyət əldə edilmişdur. Qeyd etdiyimiz kimi, son illərdə dünya iqtisadi məkanında baş verən müxtəlif xarakterli iqtisadi və maliyyə böhranlarına, iqtisadi disproporsiyalara, dünya bazar qiymətlərində mövcud olan qeyri-sabitlik hallarına baxmayaraq, Azərbaycan iqtisadiyyatı bu proseslərə kifayət qədər dayanıqlılıq göstərərək, iqtisadi artım tempini saxlaya bilmiş, xüsusilə son illərdə milli valyutanın dönərliyini, sabitliyini təmin edə bilmiş, inflyasiyanın proqnozlaşdırılan səviyyəsi qorunmuş, büdcə üzrə proqnozların yerinə yetirilməsi təmin olunmuş, milli iqtisadiyyatın tam və ayrı-ayrı elementləri üzrə beynəlxalq reytinqləri yüksəlmiş, əsas makroiqtisadi göstəricilər üzrə dinamik inkişaf təmin olunub saxlanılmışdır.

Dövlət Statistika Komitəsinin məlumatlari əsasında aparılan araşdırmalarından göründüyü kimi son illərdə iqtisadi inkişafın ümumi göstəricisi olan Ümumi Daxili Məhsulun artım tempi olduqca yüksək olmuş, 2014-cü ildə 59014,1 milyon manatlıq, 2015-ci ildə 54352,1 milyon manatlıq, 2016-cı ildə 60393,6 milyon manatlıq, 2017-ci ildə 70337,8 milyon manatlıq, 2018-ci ildə 80092,0 milyon manatlıq, 2019-cu ildə 81681,0 milyon manatlıq məhsul istehsal olunmuş, yəni son 6 ildə ÜDM-in artım tempi 38,4 faizə qədər yüksəlmişdir. İqtisadi inkişafda kəmiyyət göstəcisindən daha çox keyfiyyət və iqtisadi artım göstərisici kimi qəbul edilən ÜDM-in adambaşına düşən həcminin də sürətlə artması müşahidə olunur. Əgər 2014-cü ildə ÜDM-ın adambaşına düşən həcmi 6268,0 manat olmuşdursa, artıq bu göstərici 2016-cı ildə 6266,3 manat, 2017-ci ildə 7205,0 manat, 2018-ci ildə isə 8126,2 manat, 2019-cu ildə isə 8247,0 manat səviyyəsinə yüksəlmişdir ki, bu da kifayət qədər yüksək iqtisadi artım deməkdir. Yüksək iqtisadi artım tempi eyni zamanda digər makroiqtisadi göstəricilərin

dinamikasına da öz təssirini göstərmişdir. Nəticədə, 2019-cu ildə büdcə gəlir və xərcləri 24 milyard manatı ötmüş, xarici ticarət dövriyyəsinin həcmi 33 milyard dollar səviyyəsinə çatmış və burada 6 milyard dollarlıq müsbət saldoya nail olunmuşdur. İl ərzində ölkə iqtisadiyyatına bütün mənbələr hesabına 24,0 milyard manat və ya 14,2 milyard dollar həcmində investisiya qoyulmuşdur ki, bunun da təxminən yarısını daxili investisiyalar təşkil etmişdir. Son dövrlərdə ölkənin dünya təsərrüfatında rolu xeyli dərəcədə artmış, reytinq qabiliyyətlilik indeksi nəzərə çarpacaq dərəcədə yüksəlmişdir. Təsadüfü deyildir ki, ÜİF (Ümumdünya İqtisadi Forumu) və ya başqa adla Davos Forumunun hesabatlarına görə son illərdə Azərbaycan həm rəqabət qabiliyyətlilik reytinqinə görə, həm investisiyaya açıqlıq reytinqinə görə, həm də biznes mühitinə görə dünya ölkələri arasında birinci otuzluqda qərar tutmuşdur. Hazırda beynəlxalq təşkilatların reytinqində Azərbaycan rəqabət qabiliyyətliliyə görə ənənəvi olaraq, orta səviyyədən yuxarı ölkələr sırasına aid edilir. Dünya bankının son hesabatlarında müəyyən düzəlişlər edilərək Azərbaycanın "Doing Business 2020" hesabatında mövqeyi 6 pillə yaxşılaşdırılaraq, ölkənin qlobal reytinq sıralamasında mövqeyi 191 ölkə arasında 34-dən 28-ə yüksəlmiş və ölkəmiz bir daha dünyanın "Ən islahatçı on ölkəsi" sırasına daxil edilmişdir.

Son illərdə dövlətin iqtisadi siyasətində qeyri-neft sektorunun inkişaf etdirilməsi konsepsiyası öz nəticələrini göstərməkdədir. Belə ki, son illərdə emal, maşınqayırma, metallurgiya kimi sənaye sahələrinin inkişaf etdirilməsi istiqamətində yaradılan texnoparklar, polad istehsalı sənayesi, tikini materialları sənayesi ölkənin digər təbii resurslarından, xüsusilə, metal filizi, tikinti materialları ehtiyatlarından istifadəni, kənd təsərrüfatının inkişafı isə yerüstü təbii sərvətlərdən daha səmərəli istifadə etməni aktuallaşdırır. Aparılan araşdırmalar göstərir ki, 2006-2008-ci illərdə ÜDM-n tərkibində qeyri-neft sektorunun xüsusi çəkisi təxminən 40 faizdən də aşağı olduğu halda, 2009-cu ildən başlayaraq qeyri-neft sektorunun xüsusi çəkisi artmağa başlamışdır. Belə ki, 2014-cü ildə ÜDM-də qeyri-neft sektorunun xüsusi çəkisi 44,4 faizə, 2015-ci ildə 48,3 faizə, 2016-cı ildə 52,7 faizə, 2017-ci ildə 56,6 faizə, 2018-ci ildə 61,0 faizə, 2019-cuildə isə 65,9 bərabər olmuşdur.

**Milli iqtisadiyyatın davamlı və dayanıqlı inkişaf konsepsiyasının strateji hədəfləri**

Hazırda qloballaşan dünya təsərrüfatı sistemində layiqli yer tutan Azərbaycan özünün milli iqtisadiyyatının mövcud rəqabət mübarizəsinə dayanıqlığını artırmaq üçün, birincisi, iqtisadi inkişafın prioritetlərini düzgün müəyyənləşdirməli, ikincisi, onların reallaşdırılmasının mövcud reallığa və imkanlara uyğun səmərəli üsul, vasitə və mexanizmlərini seçməlidir. Son illərdə Azərbaycanda milli iqtisadiyyatın davamlı və dinamik inkişafa keçidini təmin etmək üçün kompleks iqtisadi, təşkilati, siyasi-ictimai xarakterli ilkin şərtləri formalaşdırmaqla bağlı görülən işlər nəticəsində ölkəmizdə kifayət qədər iqtisadi, sosial, elmi-texniki, kadr potensialı, müvafiq hüquqi baza və start kapitalı yaradılmışdır. Müasir dövrdə ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı bu gün əhəmiyyətli dərəcədə həyata keçirilən struktur siyasətinin xarakteri, miqyası və səmərəliliyi ilə birbaşa bağlıdır. Bu siyasətin əsas hədəflərindən biri ölkədə innovativ və yüksək texnologiyalı iqtisadiyyatın qurulması məsələsidir.

Aparılan araşdırmalar bir daha göstərir ki, Azərbaycanın inkişaf modelinin fundamental əsaslarından birini iqtisadiyyatın modernləşdirilməsi təşkil edir və bu modernləşmə siyasəti özündə faktiki olaraq, dörd qlobal problemi əhatə edirdi: idarəetmənin modernləşməsi; istehsalın modernləşməsi; infrastrukturun modernləşməsi və insan kapitalının modernləşməsi. Bu gün modernləşmənin bütün istiqamətləri üzrə həyata keçirilən praktiki işlərin nəticələri milli iqtisadiyyatın davamlı və iqtisadi situasiyalara dayanıqlı inkişafının təmin olunmasında öz əksini tapmaqdadır. Milli iqtisadi inkişaf modelinin əsas xüsusiyyətlərindən biri bütün sahələrdə modernləşmənin daimi və davamlı xarakterli olmasıdır. İstehsalın və idarəetmənin modernləşdirilməsi, yeni texnologiyalara əsaslanan innovativ iqtisadiyyatın təşkil olunması hazırda müvəffəqiyyətlə həyata keçirilən iqtisadi inkişafın "Azərbaycan modeli"nin əsas strateji ana xəttini təşkil edir.

Beləliklə, müasir dövrdə ölkəmiz iqtisadi inkişafın elə bir mərhələsinə daxil olmuşdur ki, onun gələcək inkişafı bu gün əhəmiyyətli dərəcədə həyata keçirilən struktur siyasətinin xarakteri, miqyası və səmərəliliyi ilə birbaşa bağlıdır. Xüsusilə, son 2020-ci ildən sonra dünyada və ölkəmizdə baş verən siyasi-ictimai və sosial-iqtisadi hadisələr fonunda davamlı və dayanaqlı inkişafın təmin olunmasını reallaşdıra biləcək struktur siyasətinin formalaşdırılması, o cümlədən onun mərhələli şəkildə həyata keçirilməsi xüsusilə aktuallaşmışdır.

**Postkonflikt bərpa dövrü, onun mahiyyəti və reallaşdırılması prioritetləri**

Son 2020-ci il dünyanın siyasi-ictimai və sosial-iqtisadi həyatında fərqli və olduqca təzadlı bir dövrün, yeni bir həyat tərzi və sosial-iqtisadi münasibətlər dövrünün başlanığıc ili kimi artıq tarixə qovuşdu. Bu il ərzində dünyada COVİD-19 pandemiya xəstəliyinin sürətlə yayılması və ona qarşı aparılan məcburi mübarizə metodları dünya təsərrüfatı sisteminin kifayət qədər zəifləməsinə, iqtisadi münasibətlərin bütün sahələrində – istehsal, xidmət, maliyyə, beynəlxalq iqtisadi və sosial münasibətlər sahələrində durğunluq və geriləmələrin baş verməsinə, iqtisadi artım tempinin zəifləməsinə və aşağı düşməsinə səbəb oldu. Artıq dünya ictimaiyyəti yeni bir fakt qarşısında qalmalı oldu – postpandemiya şəraitinə uyğun siyasi-ictimai, sosial-iqtisadi və beynəlxalq münasibətlərin yeni forma və sistemlərinin qurulması, iqtisadi artım tempinin təmin olunması, dünya təsərrüfatı sisteminin və milli iqtisadiyyatların gələcəkdə yarana biləcək hər hansı fors-major hadisələrə daha çevik adaptasiya olunma qabiliyyətinin yüksəldilməsi və sair. Yaşadığımız son əsrin təcrübəsi göstərdi ki, təsərrüfat sisteminin və sosial-iqtisadi münasibətlərin sürətlə qloballaşması nəticəsində bu gün dünyanın hər hansı bir regionunda baş verən siyasi-ictimai, sosial-iqtisadi və ya ekoloji xarakterli bir problemin tezliklə böyüyüb ümumdünya probleminə çevrilməyəcəyinə heç kim zəmanət verə bilməz. Odur ki, artıq iqtisadi leksikonumuza “postpandemiya”, “postneft”, “postkonflikt” dövrləri və digər yeni terminlərin daxil olması adi hal almağa başlayıb və milli iqtisadiyyatların bu dövrlərin tələblərinə uyğun transformasiya və struktur siyasətinin formalaşdırılması və reallaşdırılmasını təmin edəcək daha təkmil tənzimləmə sisteminin yaradılmasına ehtiyac yaranır.

Müasir dövrdə dünyanın siyasi-ictimai və təsərrüfat sisteminin ayrılmaz tərkib hissəsi kimi Azərbaycan da bu problemli hadisələrdən kənarda qalmamış, əksinə dünyanın bir çox ölkələrindən fərqli olaraq, uzun müddət ərzində daha böyük problemlərə məruz qalmışdır. Dünyanın əksər ölkələrinin üzləşdiyi pandemiya amili və onun nəticələri, strateji əmtəə bazarlarında, xüsusən neft bazarlarında baş verən təlatümlər, bəzi super güclər tərəfindən öz maraqları naminə süni surətdə yaratdıqları siyasi-istimai və iqtisadi xarakterli problemlərlə yanaşı ölkəmiz eyni zamanda son 30 il ərzində işğalçılıq və ona ikili yanaşma siyasətinə məruz qalmışdır. Öz ərazisinin 20 faizdən və iqtisadi potensialının 30 faizindən çox hissəsini itirməklə bərabər, eyni zamanda bir milyondan çox öz doğma yurd-yuvalarını itirmiş soydaş və vətəndaşlarımızın problemləri ilə üzləşən Azərbaycan iqtisadiyyatı son 30 il ərzində on milliyardlarla ölçülə biləcək itgilərlə üzləşmişdir. Hazırda müvafiq tədbirlərin görülməsi üçün, xüsusi dövlət qurumları beynəlxalq mütəxəssislərin iştirakı ilə işğal dövrü ərzində ölkə iqtisadiyyatının itgiləri və işğal olunmuş ərazilərdə yerləşən sosial-iqtisadi, mədəni-irs, infrastruktur obyektlərinin dağıdılması, ekoloji terror nəticəsində dəyən ziyanın miqdarının qiymətləndirilməsi aparılır.

Ali Baş Komandanın rəhbərliyi ilə Müzəffər Ordumuz tərəfindən 44 şərəfli gün ərzində Qarabağın işğalçılardan azad edilməsindən sonra həyatımızda yeni bir dövrün – işğaldan azad edilmiş ərazilərimizdə həyatın bərpa edilməsi, yəni “post-konflikt” və ya daha dəqiq ifadə etsək, “post-konflikt dirçəliş və ya quruculuq” dövrünün başlanğıcına start verildi. İlk növbədə, qeyd edilməlidir ki, işğaldan azad olunmuş ərazilərimizin qısa bir zaman kəsiyində bərpa olunması qeyri-mümkündür və bu problemin həllinə mərhələli şəkildə yanaşılmaqla əvvəlcə prioritetlər müəyyən edilməli və ardıcıl surətdə onların reallaşdırılması baş verməlidir. Təbii ki, bu proses bir neçə illər çəkəcək. İlk növbədə, işğaldan azad edilmiş torpaqlarımızda təhlükəsizliyin təmin ediməsi məqsədi ilə ərazinin hərbi sürsatlardan təmizlənməsi, böyük həcmdə münbit topaq sahələrini əhatə edən müdafiə

qurğularının, səngər və istehkamların ləğv edilməsi və torpaqların əvvəlki vəziyyətinə qaytarılması, digər dağıntı qalıqlarının, yəni müharibə qalıqlarının təmizlənməsi, erməni işğalı nəticəsində dağıdılmış şəhər və kəndlərə dəyən əmlak ziyanının, maddi və mədəni nemətlərimizə, ekologiya və ətraf mühitə dəyən ziyanın qiymətləndirilməsi həyata keçirilməli, milli təhlükəsizliyimizin təmin olunması məqsədi ilə azad olunmuş ərazilərdə yerləşən sərhədlərin möhkəmləndirilməsi, müvafiq müdafiə qurğularının yaradılması və bunlarla paralel olaraq, infrastruktur layihələrin, o cümlədən, yol təsərrüfatının, meliorasiya-irriqasiya, enerji, qaz, su, kanalizasiya və digər ötürücü qurğuların yaradılması, bərpası və inkişaf etdirilməsi, və nəhayət bundan sonra şəhər və kəndlərin bərpası, dövlət idarəetmə orqanlarının fəaliyyətinin təmin edilməsi, əhalinin köçürülməsi, iş yerlərinin, sosial infrastruktur sahələrinin yaradılması kimi məsələlər mərhələli şəkildə müəyyən bir dövr müddətində yerinə yetirilməsi gözlənilir.

Müşahidələr göstərir ki, başda ölkə Prezidenti olmaqla Azərbaycan dövləti işğaldan azad olunmuş Qarabağ bölgəsinin sosial-iqtisadi həyatının yenidən qurulması və inkişafının təmin edilməsində çox israrlıdır. Təsadüfü deyil ki, məlum üçtərəfli birgə bəyanatın qəbul olunmasından dərhal sonra prezidentin tapşırığı əsasında strateji əhəmiyyət kəsb edən Suqovuşan məntəqəsinə, Şuşa şəhərinə yeni avtomobil yolunun çəkilməsinə, Yevlax-Ağdam dəmir yolu xəttinin bərpasına, Fizuli aeroportunun tikintisinə, Şuşanın su şəbəkəsinin bərpası və şəhərin baş planını işlənməsinə, bölgədə informasiya-kommunukasiya və rabitə xidmətinin qurulmasına, enerji təminatının bərpasına başlanmış, bu işlərin yerinə yetirilməsinə Prezidentin ehtiyat fondundan ilkin maliyyə resursları ayrılmışdır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının bu yaxınlarda qeyd etdiyi kimi, "Əslində Prezident İlham Əliyev post-konflikt quruculuğunun konseptual çərçivəsini müəyyənləşdirib". Buradan göründüyü kimi, post-konflikt bərpa dövrünün prioritetlərini əsasən aşağıdakılar təşkil edəcəkdir:

- qısa müddətdə Qarabağ bölgəsinin ölkə iqtisadiyyatına reinteqrasiya olunması;
- bölgənin vəziyyətinin monitorinqi və işğal nəticəsində ölkəmizə və əhalimizə dəymiş ziyanın qiymətləndirilməsi;
- bölgənin təbii və iqtisadi resurslarının monitorinqi və qiymətləndirilməsi;
- bərpa-quruculuq işlərinin prioritetliyi və ardıcıllıq planlarının hazırlanması;
- bərpa-quruculuq işlərinin səmərəli maliyələşmə mexanizminin yaradılması, burada innovatin investisiya siyasətinin prioritetliyinə üstünlük verilməsi;
- şəhər, kənd və qəsəbələrin yeni baş planlarının hazırlanması və ardıcıllıqla bərpa-quruculuq işlərinə başlanması;
- ərazidə iqtisadi infrastrukturun, o cümlədən, yol, meliorasiya-irriqasiya, elektrik, qaz, su, kanalizasiya və sair sistemlərinin yaradılması, bərpası və inkişaf etdirilməsi;
- ərazidə sosial infrastrukturun inkişafının təmin edilməsi;
- dövlət idarəetmə orqanlarının fəaliyyətinin tam təmin edilməsi;
- məcburi köçkünlərin mərhələlərlə, iqtisadi və sosial məsələlər nəzərə alınmaqla öz yerlərinə qayıtması, insan kapitalının inkişafı tədbirlərinin görülməsi;
- məşğulluğun, o cümlədən, özünüməşğulluğun təmin olunması tədbirləri, o cümlədən, kiçik və orta sahibkarlığın, kiçik biznesin, ailə təsərrüfatının inkişaf etdirilməsi;
- və nəhayət, regionon bol təbii resurslsrına, o cümlədən, yeraltı və yerüstü təbii resurslarına əsaslanan yeni texnologiyalar əsasında hasilat və dağ-mədən sənayesinin, metallurgiyanın, maşınqayırma və emal sənayesinin, yüngül sənayenin, yeyintin sənayesinin, tikinti materialları sənayesinin, energetikanın, kənd təsərrüfatının, turizmin, xalq yaradıcılığı və sənətkarlığı sahələrinin inkişafı və digər tədbirlər burada prioritetlik təşkil edəcəkdir.

Bu konsepsiyanın icrası istiqamətində dövlət icra orqanları artıq əməli fəaliyyətə başlayıblar. Bərpa-quruculuq işlərinin bir mərkəzdən koordinasiya edilməsi, özbaşınalığa yol verilməməsi üçün dövlət başçısının müvafiq Fərman və sərəncamları ilə yeni dövlət koorporativ idarəetmə qurumları

yaradılıb, onlara müvafiq səlahiyyətlər verilib və əməli fəaliyyətə başlayıblar. Məhz bu məqsədlə Azərbaycan Respublikası Prezidentinin 04 yanvar 2021-ci il tarixli Fərmanı ilə "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs yaradıldı və 19 yanvar 2021-ci il tarixli fərmanla "Qarabağ Dirçəliş Fondu"nun Nizamnaməsi təsdiq edildi [1; 2]. Bu sənədlərdə qeyd edildiyi kimi, ""Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxs (*bundan sonra – Fond*) Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin bərpası və yenidən qurulması, habelə dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyi göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişafını təmin edən, eləcə də ölkə daxilində və ölkə xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir" [1].

Bu sənədlərdən göründüyü kimi işğaldan azad olunmuş regionların bərpa olunmasına sistemli və kompleks yanaşma mövcuddur. Fondun Nizamnaməsində bu yanaşma konkret olaraq, onun fəaliyyət istiqamətlərində və vəzifələrində öz əksini tapmışdır. Nizamnamənin 2-ci bəndində qeyd edildiyi kimi, "Fondun fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. müvafiq sahənin inkişafını təmin etmək;

2.0.2. müvafiq sahədə dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.3. müvafiq sahədə aidiyyəti dövlət orqanları (qurumları) ilə əməkdaşlıq etmək, təkliflərin işlənib hazırlanmasında və həyata keçirilməsində iştirak etmək;

2.0.4. işğaldan azad olunmuş ərazilərdə bərpa, yenidənqurma və dayanıqlı inkişaf işinin həyata keçirilməsinə maliyyə dəstəyi göstərmək;

2.0.5. işğaldan azad edilmiş ərazilərin bərpası, yenidən qurulması və dayanıqlı inkişafı üçün sərmayələrin cəlb olunması, habelə bu istiqamətdə fəaliyyətin effektiv təşkili məqsədilə təbliğat-təşviqat və maarifləndirmə işi aparmaq;

2.0.6. işğaldan azad edilmiş ərazilərdə bərpa, yenidənqurma və dayanıqlı inkişaf məqsədlərinin dövlət-özəl tərəfdaşlığı çərçivəsində təmin edilməsi istiqamətində işləri təşviq etmək;

2.0.7. bu Nizamnamə ilə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərmək" [2].

Bu məqsədlərin reallaşdırılması üçün Fondun üzərinə qoyulan vəzifələr olduqca geniş və əhatəlidir, yəni Fond ilk növbədə ərazilərin bərpası üzrə müvafiq Dövlər Proqramlarının və inkişaf konsepsiyalarının hazırlanması, onların reallaşdırılması, məqsədli investisiya fondlarının yaradılması, maliyyə resurslarının toplanması və onların istiqamətləndirilməsi, əhalinin məşğulluğunun təmin edilməsi, bu məqsədlə daha çox kiçik və orta sahibkarlığın, kiçik biznesin inkişafının dəstəklənməsi kimi işlərin yerinə yetirilməsini təmin etməlidir. Bunlardan əlavə Fondun əsas vəzifələrindən biri geniş nəzarət funksiyaları ilə bağlıdır. Bərpa və yenidənqurma işləri ilə əlaqədar qəbul edilmiş layihə və proqramların icrasına, ayrılmış büdcə və büdcədənkənar maliyyə resurslarından səmərəli istifayə nəzarət funksiyası da Fondun səlahiyyətləri çərçivəsindədir [2].

**Nəticə**

Qeyd edilənlərdən göründüyü kimi, "postkonflikt dirçəliş və ya quruculuq" dövründə işğaldan azad edilmiş ərazilərin yenidən bərpa olunması və ölkə iqtisadiyyatına reinteqrasiyası olunmasının yerinə yetirilməsi dövlətdən, onun idarəetmə və müvafiq icra orqanlarından kifayət qədər çevik, sistemli, ardıcıl, elmi cəhətdən əsaslandırılmış struktur siyasətinin içlənib hazırlanmasını və həyata keşirilməsini tələb edir. Bölgənin bərpa planı konkret regional xarakterli olsa da, onun reallaşdırılması ölkənin milli iqtisadi inkişaf konsepsiyasına, o cümlədən son dövrlərdə qəbul olunmuş Dövlət Proqramlarına, Strateji Yol Xəritələrinə, İcmal və Dövlət büdcə proqnozlarına, müvafiq investisiya-kredit, fiskal, gömrük, məşğulluq siyasətinə yenidən baxılmasını, onların yeni transformasiya şəraitinə uyğunlaşmasını və maliyələşdirilməsi mənbələrinin müəyyənləşdirilməsini zəruri edirdi. Məhz bu reallaığın nəticəsidir ki, Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" adlı yeni inkişaf konsepsiyası qəbul olundu. Yeni inkişaf konsepsiyasının kifayət qədər iddialı məqsədi və devizi var: "Qüdrətli Dövlət və Yüksək Rifah Cəmiyyəti" [3].

Bu konsepsiyada qeyd olunduğu kimi, "Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. Ddinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. Rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. İşğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi." [3]

Qəbul olunmuş Milli Prioritetlər milli iqtisadiyyatın müasir dövrün çağrışlarına və dünya iqtisadiyyatına rəqabətqabiliyyətli inteqrasiya tələblərinə uyğun kompleks inkişafı ilə bərabər "işğaldan azad olunmuş ərazilərə böyük qayıdış" [3] məsələsini də son dərəcə vacib bir prioritet kimi özündə əks etdirmişdir. "Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya." [3]

Buradan göründüyü kimi, "Hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması təmin edilməlidir" [3].

## İstifadə edilmiş ədəbiyyat

1. "Qarabağ Dirçəliş Fondu" publik hüquqi şəxsin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin 04 yanvar 2021-ci il tarixli Fərmanı
2. "Qarabağ Dirçəliş Fondu"nun Nizamnaməsi təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 19 yanvar 2021-ci il tarixli Fərmanı
3. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər", Azərbaycan Respublikası Prezidentinin 02 fevral 2021-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuşdur
4. Əyyubov V.S., Tağıyev A.M. Milli iqtisadiyyatın tənzimlənməsi: Dərs vəsaiti. Bakı: Avropa, 2014, 350 s.
5. Musayeva C.Q., Tağıyev A.M. Azərbaycan iqtisadiyyatı: Ali məktəblər ücün dərs vəsaiti. Bakı: Avropa, 2018, 420 s.
6. Azərbaycanın statistik göstıriciləri, 2020. AR DSK. Bakı, 2020
7. www.azstat.gov.az

**Ayyubov V. S.**
*Doctor of Economics, Professor*
*Mingachevir State University*

**Tagiyev A. M.**
*Mingachevir State University*

## Postconflict economy of Azerbaijan: current situation and strategic priorities

**Abstract**

*The article is devoted to the vital problems facing the Azerbaijani people, national statehood and economy – ensuring sustainable and long-term development of the country's national economy in the postconflict and postpandemic period, as well as such a global task as reintegration into the economy of the country of Karabakh and other regions liberated from occupation. In this regard, the article reflects a brief description of the analysis of socio-economic successes, including the problems of the national economy in modern times, as well as the conceptual views of the authors on the strategic goals set by the state to resolve these problems.*

***Keywords:*** *national economy, postconflict period, postpandemic period, sustainable development, continuous development, reintegration, national priorities*

**Эюбов В. С.**
*доктор экономических наук, профессор*
*Мингячевирский государственный университет*

**Тагиев А. М.**
*Мингячевирский государственный университет*

## Экономика Азербайджана в постконфликтный период: текущая ситуация и стратегические приоритеты

**Резюме**

*Статья посвящена жизненно значимым проблемам, стоящим перед Азербайджанским народом, национальной государственности и экономики – обеспечению устойчивого и продолжительного развития национальной экономики страны в постконфликтный и постпандемический период, а также такой глобальной задаче, как реинтеграция в экономику страны Карабаха и других районов, освобожденных от оккупации. В связи с этим в статье отражено краткое описание анализа социально-экономических успехов и в том числе проблемы национальной экономики в современное время, а также концептуальные взгляды авторов на стратегические цели, установленные государством для разрешения этих задач.*

***Ключевые слова:*** *национальная экономика, постконфликтный период, постпандемический период, устойчивое развитие, продолжительное развитие, реинтеграция, национальные приоритеты*